# TÜRKAY

aylıq ədəbiyyat dərgisi




2/16/2024

## BU SAYIMIZDA

Təranə Turan Rəhimli/ Elə Susdum, Daş Bildilər / 3
Ayhan Haceroğlu / Kerkük'üm / 4
Telli Pənahqızı / İlahi, Yer də, Göydə Sənindir / 5
Firuzə Məmmədli / Kimimsən Mənim / 6
Nurkan Gökdemir / Sınandı Aşk / 7
Nəzakət Məmmədli / Qar Yağır / 8
İnci Okumuş / İstanbul Şiirleri/1 / 9
Meryem Küçük / Baharaylası / 10
Zərəngiz Dəmirçi Qayalı / Qarşıla / 11
Kadriye Kırdök / Meçhul Yolcu / 12
Dilarə Adilgil / Diş Ağrısı / 13
Zemfira Məhərrəmli / Sənə Yanan Varsa / 14
Semengül Gafarova / Şairlər Həssas Olur / 15
Xatirə Səfər / Gece Gözlüm / 16
Günel Natiq / İki Simvol – Bal və Qarışqa -Araşdırma / 17
Təranə Arifqızı / Müharibə / 20
Şahnaz Şahin / Buğda Adam / 21
Nazlı Çelebi / "Doğma Günahlar" Romanından Bir Parça / 22
Bənövşə Mahmudqızı / Haradaydın / 23
Fatma Özger Bilgiç / Zalim / 24

**TÜRKAY**
**aylıq ədəbiyyat dərgisi**
**Baş redaktor** Lütviyyə Əsgərzadə
**Məsul katib** Meryem Küçük
**Üz qabığı rəsmi** Şemsiyye Hassani
**E mail** dergiturkay@gmail.com
**2. İl 16 Say Aprel 2024**

Təranə Turan Rəhimli

# Elə Susdum, Daş Bildilər

Bu nə yerdi, bu nə dövran,
Kim göndərdi bura məni?
Bir yol gördü div adamlar,
Yüz yol çəkdi dara məni.

Duyduqlarım duymadılar,
Dərd yedirib doymadılar,
İçimdə yer qoymadılar,
De, gizlədim hara məni?!

Hər gün bir ümid yıxıram,
Qalaq-qalaq dərd yığlram,
Daha özümdən çıxıram,
Özgələrdə ara məni.

Baharımı qış bıldilər,
Nə etdim çaşbaş bildilər,
Elə susdum daş bildilər,
Hördülər divara məni.

Ayhan Haceroğlu

## Kerkük'üm

Feleği şaştı mühürlü cağın
Geçmişini sayıklıyor Kerkük'üm
Düşmanı çıldırdı  gökde sancağın
Öksüz haline ağlıyor Kerkük'üm.

Geçen zamanlara dilbeste gönül
Gülümse firarda suratler melül
Gurbetin elemi koynumda üdül
Öksüz haline ağlıyor Kerkük'üm

Geçmişini sayıklıyor Kerkük'üm
Kurulan otağın düşmana süngü
Sazının telinde okunur türkü
Yürekte fışkıran aşkınsa bengü
Öksüz haline ağlıyor Kerkük'üm

Geçmişini sayıklıyor Kerkük'üm
Kadımsın ezelden silen yok bunu
Yürük gelinisin Oğuz mecnunu
Silkin yerinden hatırlat dünü
Öksüz haline ağlıyor Kerkük'üm

Geçmişini sayıklıyor Kerkük'üm
Kurulsun yeniden taht saltanatı
Cırt çeksin ErTürkmenin kıratı
Ya var olacağız, ya yakarız kâinatı
Öksüz haline ağlıyor Kerkük'üm
Geçmişini sayıklıyor Kerkük'üm.

## Telli Pənahqızı

# İlahi, Yer də, Göydə Sənindir

İlahi, yer də, göydə sənindir,
Yerdəki insanlar da sənin ruhun, tənindir!
Mərhəmətin bol olsun, hidayətin dağ, qaya,
Sən özün en, sahib çıx, yaratdığın dünyaya!
Bu dünya əzəl gündən bihudədir, fanidir,
Qəlblər buza dönübdür, sən bu qəlbləri dindir,
İndi yer üzü də çalxalanan gəmidir,
Qıyma gəmi çırpılsın sərt, çılpaq qayalara.
İnsanlar bir çıraqdır, şöləsi qoy sönməsin,
Səni sevən məmləkət qoy səhraya dönməsin,
Yer üzünü iblislər yer altına gömməsin ,
Sən soyuq qəlblərdə də mərhəmət, ziya ara!
İlahi, keç mənim də suçumdan, günahımdan,
Ürəyim qübar edir insanların ahından,
Sənə agahdır hər şey, sən ver dünyaya səhman ,
Verəcəyin şəfqət də şəfqətdir yaralara!
Sən yapış əlimizdən, qoyma dağılsın aləm,
Bu yer üzü sənindir, hər kəs sənin bir zərrən!
Nicat gözləyənlərə olsun lütfün də məlhəm,
İnsanlıq çəkilməsin bir də amansız dara!

Firuzə Məmmədli

# Kimimsən Mənim

Uşaq evində baxışı niskilli bir körpə mənə "ana" dedi

Sən mənim qızımsan, dalınca qaçım?
Ardınca su atım, oğlumsan bəlkə?
Durum lap ayağı yalıncaq açım,
Arxamsan, qanadım, qolumsan bəlkə?!

Səbəb tapammıram, axır göz yaşım,
Ürəyim dəryadı, boşalır, dolur.
Həsrətim boy verib, - mənlə yanaşı,
Kimimsən, desənə, a qurban olum.

Mənə "ana" demə, mən "yol üstdəyəm",
Ölərsəm, təzədən yetim qalarsan.
Sən bu şirinlikdə atasız bala
Yenidən anasız çətin qalarsan.

Hələ anlamırsan, yaş o yaş deyil,
Ruhumla yaşaram gövdəndə sənin.
Amma bu təşviş də elə boş deyil,
Mən kimə tapşırım "gedəndə" səni?!

Möcüzə gəzirəm adında bəlkə,
Sanma bu müjdədən doyub gedərəm.
Ana tək qalarsan yadında, bəlkə
Dünyada bir övlad qoyub gedərəm.

Qəzadı, qədərdi, amma nə deyim,
Dolu gördüyüncə bu, boş dünyadı.
Gah əlimi kəsir, gah da ətəyin,
Bu, ayıq başla da sərxoş dünyadı.
Görürsən səbəbsiz deyil göz yaşım,
Ürəyim dəryadı, boşalır, dolur.
Həsrətim dayanıb mənlə yanaşı,
Kiminsən, desənə, a qurban olum.

## Nurkan Gökdemir

# Sınandı Aşk

ve sınandı Aşk…
şefkat denizlerinde
ümitvar gökyüzünde
yerin anaç göğsünde
masumca yüreklerde
bu gece
bu gece

çoğaldı gülce
nazenin dualarla
derin sırlı rüyalarla
hasretli arzularla
y a y ı l d ı
y a y ı l d ı

çılgın alazlarıyla
yaktı hızla savurdu
küll Aşk zerreleri'ni
uzamsız dünyalara
ve başladı o ezelî

içre kızıl kıyam
gökçe yangın
ey!!.

## Nəzakət Məmmədli

# Qar Yağır

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Dünyanın ağlığı üzünə çıxır.
Yerlər də gözləmiş qar gəlişini,
Alır, qucaqlayır, bağrına sıxır.

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Torpaq bərəkətə bələnir yatır.
Çılpaq ağacların qol-budaqları
Bir ana hənrinə bələnib yatır.

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Rəqs edir elə bil hər qar dənəsi.
Gözümün önünə gəlir uşaqlıq, –
Həyatda hər fəslin öz ənənəsi…

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Qara qan ələyir o qanlı Yanvar.
Məsum insanların qanı üstünə
Qərənfil döşəyən tarixlər də var.

Qar Yağır.
Naxışlı, dümağ, bəmbəyaz–
Şəhid Xocalının yarası üstə.
Şuşa nəfəsini öpüb bu qarın
Qoyuram gözümün qarası üstə.

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Örtük salır şərə, çirkinliklərə.
Bəyaz yaraşığın ərməğan edir
Ruhları oxşayan gözəlliklərə.

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Min şükür edirəm mən bu ülfətə.
Qar ruzi, bəpəkət, qar təzə ümid,
Yer də möhtac imiş bu məhəbbətə.

Qar yağır.
Naxışlı, dümağ, bəmbəyaz.
Yağsın yerə-yurda, çölə-çəmənə.
Kaş insan ömrünə qış tələsməsin.
Yağmasın qar, yağış insan ömrünə.

## İnci Okumuş

# İstanbul Şiirleri/1

### Nedim İstanbul

Sevdana düştüğüm yerde
Her kulaç
Sana götürüyor beni
Nasuhî gözyaşlarıyla âşıklar
Dinliyor Süleymaniye'den
Huzurun ulvîleşen sesini
Hissettir bana yalnızlığımda
Vefalı bir dost gibi
Hissettir ey İstanbul
Omzuma konmuş ellerini

### Ferman İstanbul

Ağır ağır sürükle yorgunluğumu
Dalsın seninle gözlerim
Üsküdar'da hülyalı uykuya
Al kır direncini Beykoz'da
Ruhumdaki karanlığın
Müebbet ver
Kanlıca'da
Bekleyen sevdalıya

### Kavi İstanbul

Akşam uykusuna dalan Hisar'ın
Sıçrar yangını damarlarıma
Bin âh ile yaşamayı öğrenirken senden
Yedi tepeden ilahî sesin gelir kulaklarıma
Firakına düştüğüm yerde bil ki
Koşuşan sendin
Kirpik uçlarıma

## Meryem Küçük

# Baharaylası

göçebe gözlerinin ikliminde
bin yıllık toprağı yarıp
tekrar yanmak u/yanmak için
köşesiz bir kentin kapılarından
ovalarından köprülerinden
akarsularından coşup coşup gelen
sen ey dirilişin baharaylası
bahşet bana acı badem çiçeklerini

bacağından bayırlarından ayrıldık
dağıldık
taşıdık yasımızı gecenin karanlığına
kederin en kudretli ihtişamıyla
sarıldık toprak parçasına
sonsuza dek
tek tek düşürdük adımızı
giyinip ölüm harmanilerimizi
bir yudum ayağ için

koyulaşmakta şiirin yeşili
rüzgâr meyvâlara dokundukça
patlayacak maşrapalar  tohumlar
her boşlukta, her dalın koynunda
fırladıkça uzun kökler
kıvrılıp kıvrılıp, toprağın bağrında
yankısı vurur baharaylası'nın
beyazdan, sarıya, pembeden mora
Güller, Leylaklar, Yaseminler
davet verir ,bukle bukle
kuşlara ,uçankarıncalara
tüm renklerin resitali
bir baş dönmesi baharaylası

yıkık kapılara, yıkık minarelere
saçılmış kuşlar, kuşlardan çok gök /gökyüzüne en derine
kurumuş ağaçların derdine
menevişlenmiş kapılar
el yazması gibi bağrıma düşen
ey firûze kubbe
yapraklarla gözlerle kaplanmışım
bir bir imge demetine
rast geldim baharaylası rüzgârına

## Zərəngiz Dəmirçi Qayalı

# Qarşıla

Ucu şiş qayalı uca dağları,
Görməyə gəlmişəm, ana, qarşıla!
Mən səni içimdə ürək bilərdim,
İndi can bilmişəm, sona, qarşıla!

Dünya nə şirinmiş keçə bilmirsən?
Göz yaşı acıdır, içə bilmirsən….
Yaxçını-yamanı seçə bilmirsən,
Ürək, sən də yana-yana, qarşıla!

Əzəldən: “Can!”-dedi, bu dünya mənə,
Sonradan bürüdü dumana, çənə,
Atamı, anamı istərəm yenə,
Bəlkə, yuxularda dönə, qarşıla!

Dünya sirr  qazanı tökülsə dolmaz,
Hər düşünən kimsə ağıllı olmaz,
Cavanlıq keçəndi, axıra qalmaz,
Qocalıq gəlsə də, yenə qarşıla!

Zərəngiz, ədalət dəvə bonunda,
Yaxşı da, yaman da oynar oyununda!
Beşcə qarış yer ver, ana qoynunda,
Ey Vətən, sığındım sənə, qarşıla!

**Kadriye Kırdök**

## Meçhul Yolcu

Çıngıraklı yılanın kuyruğunda zaman
Az ötede oynayan masum çocukluğum
Hazan sarısı ömrümün dallarında
Gümüşi yağmur sarmış kanatlarımı
Yazdan kalma kırlangıç misali
Yol yordam bilmiyorum
Çakalın, itin, kopuğun dünyasında
Bata çıka, hasbel kader yaşıyorum
Meçhul sabahların titrek ayazında
Hu çeken kumruları öykünüyorum
Yorgun başım bir kayaya yaslı
Uyumak değil ki derdim
Uyandığımda arsızı, namussuzu ve dahi hırsızı
Görmeye yok tahammülüm
Yaktım masivaya varan tüm köprüleri
Yalnızlığa kurdum tahtımı
Rüzgâr hay vururken kulaklarıma
Güneşin turuncu ölümünde kayboluyorum
Düzelir diye beklemiyorum arsız dünyayı
Kendi bedenimi teneşirde yıkıyorum
Beklediğim, özlediğim yok istikbalden
Vaz geçmişliğim saklı koca bir hiç çıkınında
Umut denizinde boğduğum kambur hayallerim
Kader limanında yaktığım sevdalarımla
Sırasını bekleyen meçhul yolcuyum

Dilarə Adilgil

# Diş Ağrısı

Neçə gün idi ki, Sübhanın dişi bərk ağrıyırdı. Nə edirdi, keçmirdi... Həkimə getməyi isə heç xoşlamırdı. Deyə bilərsiniz ki, həkimə getməyi kim xoşlayır? Deməyin, həvəskarlar da var... Elə adam var ki, həkimləri gəzməyi özünə peşə edib. Yəni, bu işin xəstəsidi... Özünə qarşı ifrat diqqəti üzündən. Sübhanı isə xərəklə aparmasalar, ölərdi, öz ayağı ilə həkimə getməzdi... Özü də diş həkiminə... Ağrıkəsici ilə, yerli keyitmə ilə, türkəçarəylə ağrını dondurub həkim ziyarətini təxirə salmağa çalışırdı. Günlərlə ağrıyandan, gecələr ağrının şiddətindən canını qoymağa yer tapmayandan, tamam taqətdən düşəndən sonra, axırda əlacsız qalıb sürünə-sürünə özünü stomatoloqun kabinetinə saldı. Ağrıyan dişini nişan verdi. Həkim müayinə etdi, döyəclədi, rentgenə göndərdi. Nəticədə qətiyyətlə: “Mənlik deyil” verdiktini verdi, yəni, diş probleminiz yoxdur, qaymoritə yoxladın...

– Axı dişim ağrıyır...
– Sizə elə gəlir. Başınız ağrıyır?
– Ağrıyır...
– Odu ha! Başınızın ağrısı dişinizə vurub.

Sübhan daha bir zəif təşəbbüs etdi:

– Doktor, bəlkə əksinədi? Dişim başıma vurub...
– Xeyr, əzizim, mən illərin həkimiyəm, diş ağrısı ilə baş ağrısını ayıra bilmirəm? Növbəti xəstə buyursun...

Sübhan çox rəncidə oldu... Deyildiyi kimi, həkimlərə düşməklə heç arası yox idi. İndi isə məcbur qalıb xəstəliyinin səbəbinə çatmalı idi. “Ya Allah” deyib “burun-boğaz” həkiminə üz tutdu. Loru dildə “burun-boğaz həkimi” dediyimiz LOR-uzman idi. Özü də ən müasir avadanlıqlarla təchiz olunmuş modern klinikada çalışırdı. Sübhanın dərdini soruşdu, ətraflı sorğu-sual etdi. Sonra LOR-kombayn vasitəsilə müayinə, analizlər... Amma xəstənin dərdini bilə bilmədi: – Mən öz tərəfimdən yoxladım, təmizsiniz... Bir nevropatoloqa da göstərin özünüzü...

Zavallı Sübhan bu dəfə də nevropatoloqun qapısını döydü... Davamlı ağrı onu bir günə qoymuşdu ki, etiraz etməyə də halı qalmamışdı. Robot kimi bir həkimdən çıxıb o birinə yollanırdı. Məruz qaldığı psixoloji travma, qorxu, yeməməzlik onu əridib çöpə döndərmişdi. Arıqlamış, gözləri çuxura düşmüşdü. Həkimləri gəzəgəzə büdcəsi də özü kimi incəlmişdi...

Zəhmli nevropatoloq da xəstəlik tarixçəsini vərəqlədi, çəkicini çıxarıb döyəclədi, “üçlü sinirin nevralgiyasıdı” deyib müalicə yazdı. Sübhan 2 həftə səliqə ilə müalicəsini elədi. Amma, çifayda! Yenə gözüyaşlı həkiminin yanına qayıtdı. O da: “Bir KT elə”, – dedi.

Sübhan əvvəl KT-yə, sonra MRT-yə yollandı. Bir dəstə kağız-kuğuzla həkimin yanına qayıtdı. Həkim də, nəticələrlə tanış oldu, diskə baxdı. Xeyli çək-çevirdən sonra “mənim bildiyim bu qədər” deyib, neyrocərraha müraciət etməyi məsləhət gördü.

Həkimlər sanki tapmaca tapırdılar... Ya da... fala baxırdılar... Sübhan isə ağrıdan göyə çıxırdı...

Yenə də hər şey başdan başladı... Yoxlamalar, təhlillər, gümanlar, konsiliumlar, əkib-biçmələr, xaricə göndərmələr... Və dəhşətli hökm; başında şiş var, təcili əməliyyat olunmalıdır.

Sübhan stomatoloqun qapısını itələyib elə açdı ki, pəncərənin şüşələri cingildədi. Həkimin kreslosunda oturub dedi:

– Çək dişimi!
– Xəstə, bu nə ədəbsizlikdir? Kim sizə ixtiyar verib? Çıxın bayıra!

Sübhanın daxilindəki alov püskürdü:

– Bir aydır məni girinc eləmisən. Mən bilmirəm haram ağrıyir? Çək dişimi.
– Ay oğlum, ay atam, ay qardaşım, məni işimdən eləmək istəyirsən? Mən sağlam dişi çəkə bilmərəm. Rentgen problem göstərmədi.
– Diş mənim, can da mənim! Çək deyirəm! Yoxsa özüm çəkəcəyəm! Kəlbətini görüm...

Həkim: “Günah məndən getdi”, – deyib kəlbətini əlinə aldı...

Bu yerdə oxucu səbrsizlik göstərib (həm də haqlı. Hər deyəndə belə hadisə baş vermir ki!) xəbər ala bilər ki, məsələ necə qurtardı?

İndi deyəcəyəm... “Hər insan özü öz həkimi olmalıdır”, deyirlər a, bax əsl o kəlamın isbatı! Dişin dibini bütün qurd yeyibmiş. Kök dərində olduğu üçün rentgen göstərməyib. Həkimin bilməməzliyi, ya diqqətsizliyi də bir ayrı dərd.

Sübhan başına gələnlərdən heç cür sakitləşə bilmirdi. Axı stomatoloq gənc adam deyildi. İndiyə qədər qabulundan, əlindən yüzlərlə xəstə gəlib keçib. Ola bilməz ki, oxşar hadisə ilə qarşılaşmasın. Bəs niyə belə səhlənkarlıq etsin? İllərin təcrübəsi ona heç nə verməyib, necə deyərlər, ikinin üstünə iki gələ bilmir. Bəs o biri mütəxəssislər? Niyə xəstənin gözünü açmırdılar, həqiqətin yolunu göstərmirdilər? Nə yaxşı ki, Sübhan ayıq tərpəndi, bəsirət gözü açıldı. İntuisiyasına inamı, ayıq-sayıqlığı, başlıcası orqanizmini tanıması sayəsində özünü böyük bir faciədən qurtardı. Əziz oxucumu maraqda saxlamaq üçün əvvəldə demək istəyib amma demədiyimi indi söyləyirəm... Sübhan dava-dərman həvəslisi olmamaqda, həkimlərə ürək qızdırmamaqda necə də haqlı imiş. Bir anlığa fərz edək ki, həkimə allah kimi baxan bir xəstə olaydı... Nadan həkimə inanıb özünü salardı bıçağın altına... Bəs onda?

Bu qədər! Sözüm bitdi. Düşünməyə dəyər...

## Zemfira Məhərrəmli

# Sənə Yanan Varsa

– Axır vaxtlar gündüz saatlarında evdə az olursan, ay qız! Səbəbi nədir görəsən?

Gənc qadın ərinin amiranə səsinə diksindi, özünü bir boy atıb nə cavab verəcəyini götür-qoy elədi. Handan-hana:

– Daim evdə tək qalmaqdan bezirəm. Anam xəstədir, bilirsən. Evdən çıxıb gedirəm ki, həm onu görüm, başa çıxım, həm də bir az təmiz havada gəzim, – dedi. Sonra isə dərindən köks ötürüb:

– Körpəmizin doğulmasına da hələ var...

Üzünü ərinə tərəf çevirəndə onun zəhmli baxışları ilə qarşılaşdı. İşdən yaman əsəbi gəlmişdi. Yemək masası arxasında əyləşib ağzını marçıldadan, sanki boşqaba zərblə çırpdığı qaşıqdan, çəngəl-bıçaqdan hirsini-hikkəsini çıxan kişi heç sakitləşmək istəmirdi:

– Hər şeyin bir yolu-yolağası, təhəri var. Bu gediş-gəlişi daha su yoluna döndərmə, ağır otur, batman gəl!

Qadın susdu. İçi sızlasa da, bəxtinə, taleyinə düşən ömür-gün yoldaşı ilə bağlı çox şey bilsə də, günü qara olsa da, danışmadı. Ona demədi ki, vaxt keçirdiyin, əyləndiyin, ailəmizə balta çalan o sərbəst, şıltaq qadın mənzilimizə zəng edərək sənin sirrini açıb. Sizin sevgi macəralarınızı bu azğın, əxlaqsız qadının dilindən eşitmək nə qədər əzabverici olsa da, dözümüm, səbrim köməyimə gəlib. Üstəlik məni yad adam gözündə görməyin, hətta ilk hamiləliyimə də etinasız yanaşmağın çox ağrılıdır.

Kişi xörəyini yeyərək, qarşısındakı boşqabları zərblə geri itələdi. Ona səliqə-sahmanla süfrə açmış zövcəsinə heç “sağ ol” da demədi. Mobil telefonuna dəqiqəbaşı gələn zəngləri hər dəfə dayandırıb ekrana diqqətlə baxırdı. Ayağa qalxdı, gödəkçəsini asılqandan çıxarıb qapıya yönəldi.

Qadın pəncərədən küçəyə boylandı. Alatoran çəkilir, qaranlıq düşür, gecənin zülmət pərdəsi şəhərin başı üstünü alırdı. Cövlan edən payız öz hökmünü verməkdə, sözünü deməkdəydi. Saralıb yerə tökülən xəzəllər küçədəki işıq dirəklərindən asılmış lampaların şöləsində cazibədar görünür, kəhrəba butalı, qızılı xalçanı xatırladırdı. Dumanlı, çiskinli hava qadının tutqun əhvalı, pərişan halətiylə həmahəng idi. İstədi bu şərqovuşan vaxtda hara gedəcəyini soruşsun. Amma fikrindən vaz keçdi. “Onsuz da geri qayıdan deyil,” – deyə düşündü. Qəhər onu boğur, göz yaşları içinə axırdı.

* * *

Beş-altı ay əvvəl tanış olduğu açıq-saçıq, naz-qəmzəli gözəlin yanına tələsirdi. Günortadan bəri zəhlətökən çiskindən əsər-əlamət yoxuydu, indi güclü yağış şəhəri silkələyird. Maşının şüşələrini təmizləyən fırçalar gur yağmura tab gətirmir, necə deyərlər, göz-gözü görmürdü. Yolda sıx tıxac yaranmışdı. Avtomobillərin siqnal səsləri aləmi bürümüşdü: hövsələsiz sürücülərin isə başqa çarəsi yox idi.

Kimsə bildirdi ki, qarşıda avtomobil qəzası baş verib. Sanki ətrafdakı hər şey, hətta təbiət də qəfil, şıdırğı leysan yağışıyla bu görüşə mane olur, sədd çəkirdi. Üstəlik qəza nəticəsində yol tamamilə bağlanmışdı. Görüşə gedən kişi maşını birtəhər kənara verib saxladı. Tıxac məngənəsindəki avtomobillərin arasından birtəhər keçərək xeyli irəlilədi. Qarşıda gördüyu mənzərədən dəhşətə gəldi. İti sürətlə şütüyən, işıqfora məhəl qoymayan minik avtomobillərinin zəncirvari toqquşması nəticəsində köhnə “Jiquli” əzik-üzük olmuşdu.Taksi kimi yola çıxmış bu maşının ön oturacağındakı sərnişinin–çalsaçlı qocanın bir ayağı dizdən aşağı üzülmüşdü. Üz-gözü, qolları qan içindəydi. Sınıq-salxaq maşından onu güclə çıxarıb xərəyə qoydular, təcili yardım maşınına apardılar.

Yol polisinin əməkdaşları qəza baş vermiş ərazini təmizləməyə, qayda yaratmağa çalışırdı. Başqa yaralılar da vardı. Ağxalatlıların onlara köməyə tələsdiyini görəndə həkim dostu yadına düşdü. Xeylı vaxt idi ki ondan ötrü darıxmışdı. O, cərrah-travmatoloq idi, yaxınlıqdakı özəl klinikada işləyirdi. ”Tıxacda qalmaqdansa, dostumla görüşərəm”, –deyə düşündü. Vaxtilə eyni məktəbdə, eyni sinifdə oxumuşdular. Məktəb illəri bitəndə yolları ayrılmışdı. O, biznesi, şagird yoldaşı isə tibb sahəsini seçmişdi.

* * *

Klinikaya çatıb dostunu soraqladı, ikinci növbədə işdə idi. Onun iş otağına qalxdı. Qəbula gələn sonuncu xəstə çəliyini yerə döyəcləyə-döyəcləyə otaqdan çıxanda içəri keçdi. İllərin həsrətlisi kimi qucaqlaşıb, bir-birindən hal-əhval tutdular. İndicə şahidi olduğu yol qəzasından danışıb, ”qoy bir də heç kəs xəsarət almasın”,– dedi. Sonra isə:

–Deyirlər, ”kişinin başına iş gələr”. Bir qadınla görüşürəm. Bu ağır yol qəzasıyla qarşılaşandan sonra düşündüm ki, başıma bir iş gəlsə, həmin gözəl buna necə yanaşar? Lap elə tutaq ki, belə bir qəzada ayağımı itirsəm, məni özünə yaraşdırarmı?

Gənc həkim eşitdiklərinə biganə qalmadı:

–Sənin çox ağıllı, təmkinli, həm də gözəl həyat yoldaşın var. Bütün bunları ona necə rəva görürsən? İndi söylədiklərini sənə heç yaraşdırmadım axı. İstəyirsən hər iki qadını sınayaq, fikirlərini öyrənək.

–Necə?

–Səbr elə, biləcəksən.

Həkim, dostunun telefonunu ondan aldı, ekrandakı sonuncu nömrəni yığıb səsucaldan düyməni işə saldı:

–Xanım, avtomobil qəzasında xəsarət almış gənc kişini klinikamıza gətiriblər. Qəzadan əvvəl sonuncu dəfə telefonda sizinlə danışıb. Vəziyyəti ciddi, kritik idi. Qanqren olmasın deyə onun hər iki ayağını amputasiya etdik. Gəlib evə apara bilərsiniz.

Ötkəm, qaba bir səs otağa yayıldı:

–Nə dediniz, iki ayağı kəsilib?! Sonra daha kəskin, ədalı tərzdə:

–Yanlışınız var. İndi onun mənə heç bir aidiyyatı yoxdur! Daha mənə gərək deyil. Gözəlçə arvadını axtarın, ərini çox sevdiyini söyləyirdi. Qoy gəlib axsaq, şikəst ərinə sahib çıxsın, yiyəlik eləsin.

Ehtiyaclarını ödədiyi, çox müşkülünü asan elədiyi, az öncə görüşünə can atdığı qadın indi gör nələr söyləyirdi! Beynində sanki mühərrik uğuldayırdı. Ağrıyan başını əllərinin arasına alıb, fikrə getdi. Büsbütün sarsılmış, tutduğu əməldən peşman olmuşdu.

Düşündükləri sınağı başa vurmaqda israrlı olan həkim isə səsinin ahəngini dəyişərək dostunun evinə zəng edib, onun xanımına da eyni məlumatı çatdırmışdı. Bu xəbərdən sarsılıb hönkürən qadının cavabına heyran qalmışdılar:

–Siz nə danışırsınız? Ona canım qurban. O indi hardadır? Klinikanızın yerini deyin lütfən. Kaş bu yağmurlu havada heç evdən çıxmayaydı, qəzaya da düşməyəydi. Yaralı canına qurban olum. Nə yaxşı ki sağdır, İlahi! Hər əziyyətini özüm çəkərəm, gözümdən aralı qoymaram onu...

İncitdiyi, əzab verdiyi zövcəsinin kövrək, həlim səsini eşitdikcə gözləri dolur, səhvlərini bir daha başa düşürdü. Onu ürəkdən sevən, anlayan, halına yanan qadını olduğuna görə qürrələnirdi. Əsl xoşbəxtliyin nə olduğunu indi anlamışdı...

## Semengül Gafarova

## Şairlər Həssas Olur

Şairlər həssas olur,
Kədərdən tez solur,
Tez dolur, tez də boşalır
Şairlər, həssas olur.

Yaxşıya heç qıyamanlar,
Pisi də ayıramayanlar,
Ulduz işığına uyuyanlar,
Şairlər, həssas olur.

Hamıya sevinc atar,
Dünyaya şirin qatar
Birdən aya da batar
Şairlər, həssas olur.

Heç kimi incitməzlər,
Sevdiyini atmazlar.
Söz seyrinə çıxanda,
Dan üzünədək yatmazlar
Şairlər həssas olur.

Xatirə Səfər

# Gece Gözlüm

Mən sevdiyim gözlərin
Bizə yol çəkir görən
Ürəyindən səsimi
Eşitmək keçir görən??
Xatirimden de görüm
Hansi vədə çıxırsan?
Hansi bəxtsiz birinin
Ürək damın yıxırsan?
Qulaqların sesimden
De ne tez yorgun düşdü
De görüm gece gözlüm
Aradan nələr keçdi?
Sən həyatda gördüyüm,
Rastlaşdığım yeganə
Zaman yeyən adamsan..
Ömrümdən neçe aylar
Oğurladın dinmədim..
Nə etdimsə olmadı..
Yazmadı Tanrı səni.
Tərsliyin qol güləşdi
Dualarımla birgə..
Uduzdummu bilmirem..
Bunu zaman gösterer..
Amma inan ,ağıllım
Bele gediş
Tərk ediş
Adına yaraşmadı
Ürəyimə sinmədi...

## Günel Natiq

# İki Simvol – Bal və Qarışqa -Araşdırma

Rüzgarlar bal damlatsın!

Eldə bir söz var, deyir, arının neştərini gördüm, balından əlimi üzdüm. Amma biz bu sevdadan heç vəchlə əl çəkmək niyyətində deyilik. Necə ki arı gül-çiçəkdən şirə çəkir, biz də şirin sözlərdən, deyimlərdən bal tutacağıq...

Belə bir söz də var, deyir, arı balını yeməz, qarı yağını. Bəs bu eyniləşmələr hardan gəlir? Məsələ burasındadır ki, ağzında balı, quyruğunda zəhəri olan bu təzadlı varlıq insan oğluna tarix boyu yaxın olub. Arı həm insanın həyatını, həm də o biri dünyasını təmsil edib. Bəzi mədəniyyətlərdə bal dünyaya girişin açarıdır, bəzi xalqlar isə hətta ölüləri balla mumyalayırdılar. Babil, Şumer ənənələrində görkəmli insanları balla birgə torpağa tapşırardılar. Qədimlərdə hətta belə bir adət vardı: təzə evlənənlər bir-birlərinin ovcundan bal yeyərək acı söz deməyəcəklərinə and içirdilər.

Arılar göz yaşından əmələ gəlib?

İlk arının günəş tanrısı Ranın göz yaşlarından yarandığını rəvayət edirlər. Mifologiyada arılar müxtəlif forma və obrazlarda qarşımıza çıxır. Məsələn, yunan mifologiyasında arılar Tanrının elçisidir. Baş tanrı Zevsin bir adı da “Arılar kralı”dır və o, arılarla qidalanır. Roma mifologiyasındakı Mellona isə arılar tanrısıdır. Het mifologiyasında fırtına tanrısının oğlu qeyb olur və onu bir arı qaytarıb geri gətirir.

Əsatirlərdə tanrılara gənclik və həyat eşqi bəxş edən ambroziya bal və çiçək tozunun qarışığından hazırlanıb. Bu məhsul, eyni zamanda, qədim yunan olimpiya oyunçularının enerji qaynağıdır.

Bal yeyin, çox yaşayın.

Arıçılıqla bağlı ilk ciddi araşdırmalar e. ə. 600-cü illərdə aparılıb. Arıçılığa dair ilk kitabı e. ə 300-cü illərdə Aristotel yazıb. Hippokrat yüksək qızdırmada, iltihablarda bal yeməyi tövsiyə edib. “Bal yeyin, çox yaşayın” – deyilir qədim kitabələrdə.

Belə bir rəvayət var: filosof Demokrit 109 yaşına çatır və ölümün yaxınlaşdığını hiss edir. Bunun üçün də o daha az yeməyə qərar verir. Beləliklə, hər gün bir yemək növündən vaz keçir. Ən son yeməkdən vaz keçəcəyi gün tanrı Demetranın şərəfinə festival təşkil olunur. Müdrik belə bir müqəddəs gündə ölüb tədbirə hüzn qatmaq istəmir, ona görə festival boyunca içində bal olan qabı burnuna yaxınlaşdırıb iyləməklə kifayətlənir. Festival bitəndə qabını əlindən buraxan müdrik elə o andaca ölür.

Binaları əsrlər boyu yaşatmaq və şər qüvvələrdən qorumaq üçün təməl daşlarının üstünə bal tökürdülər. 682-ci ildə Babil yenidən qurularkən təməllərinə bal tökülmüşdü.

Heykəllərin üzərindəki arı motivləri də qədim inanclardan soraq verir. Artemisin heykəlini göz önünə gətirək; aşağı hissəsi arı motivi ilə süslənib.

İslam dinində arılar Tanrının əsgərləridir və onları yuxuda görmək, hətta, “Qurani- Kərim”i oxumağa bərabər tutulur. Xristian inancında isə o, saf və məsum Məryəmin simvoludur. “Tövrat”da balın adı 54 dəfə çəkilir.

Qərb mədəniyyətinin çox bəhrələndiyi qədim hindu dinində də bal müqəddəs sayılır. Tarixdə ən qədim dini mətnlərdən olan “Riqveda”dakı ilahilərdən birində bu alqışlar var:

Bütün rüzgarlar bal damlatsın!<br>
Bütün çay və göllər balı yenidən yaratsın!<br>
Bütün dərmanlarımız bala çevrilsin!<br>
Sübh çağı və gecə bal ilə dolsun!<br>
Qaranlığın parçaları bala bulansın!<br>
Şəfa qaynağımız, bu yuxarıdakı göy üzü balla dolsun!<br>
Ağaclarımız baldan olsun!<br>
Günəş baldan olsun!<br>
İnəklərimizdən bal sağılsın!

“Balı ye, arısını soruşma”

Arıların həyatı dərin fəlsəfədir. Onların öz dəmir qanunları var. Arı ailəsində gözətçi arılar, kəşfiyyatçı arılar, döyüşçü arılar, hava haqqında məlumat verən arılar, süd verən arılar, dişi və erkək arılar, arı şanını dəqiq yığan arılar və ana arı var. Ana arı gün ərzində öz çəkisindən dəfələrlə çox yumurta qoyur. Süd verən arılar yumurtanın üstünə süd tökür və onu mumyalayırlar. Maraqlıdır ki, hansı növ arının doğulacağı yumurtaların arı südü ilə neçə gün bağlı saxlanmasından asılıdır. Əgər yumurtanın üstünə 3 gün arı südü qoyub bağlayırlarsa, 21-ci gün ordan işçi arı çıxır. Yox, əgər 16 gün arı südü ilə bağlı saxlayırlarsa, 21-ci gün yumurtadan ana arı çıxır.

21-ci gün bala arı qapağı ayağı ilə kəsib yumurtadan bayıra çıxır. Bala arı 3 gün istirahət edir, sonra ömrü boyu işləyir. İşçi arıların ömrü 30-40 gündür. Ana arı isə arı südü yediyinə görə 7-8 il yaşayır. Əgər ana arı ölərsə, ailədə qanunsuzluqlar hökm sürər, arılar işləməyə getməz, yığdıqları balı yeyər və bir-birləri ilə müharibə aparar.

Balsız şanda arı durmaz

Ölüm arılar üçün adi haldı. Çünki gündə minlərlə arı tələf olur. Ölmüş arıları işçi arılar yuvadan bayıra atırlar. Ana arı öləndə isə arılar 3 gün matəm edir.

Bal dolması

Qədim xalqlarda belə bir yemək növü varmış. Mənbələrin verdiyi bilgilərə görə, bal dolması pendir, ət, sirkə və soğandan hazırlanıb. Balda bişirilmiş əncir yarpaqlarının dadı doyulmaz olub.

Şimali Amerika hinduları də bu əvəzsiz nemətdən ocaqda bişirdikləri xörəklərdə faydalanıblar. Məsələn, onlar balqabağın içini doldurarkən alma şirəsi, meyvə yağlarıyla bərabər, baldan da istifadə ediblər.

Bal kimi şirin poeziya

Belə bir atalar sözü də var: "Filankəs bal alacağı yeri bilir". Yəni bilir, kimdən necə faydalanmaq lazımdır. Biz də bal alacağımız yeri bilirik: ozan sözü baldan şirindir.

"İnsanlar arasında heç bir ayrı-seçkilik ola bilməz" fikrini şeirinə gətirən Aşıq Veysəl müqayisə üçün baldan faydalanır:

Kimi molla, kimi dərviş,
Allah bizə nələr vermiş!..
Kimi arı-çiçək dərmiş,
Sən balsan da, mən cecmiyəm?!

Veysəlin başqa bir şeirindən yenə balın ətri gəlir. Varlıqla yoxluğun gizlinlərini çözələyən ustad "Arımıyam, çiçəkmiyəm, balmıyam" deyə özü-özünü soraqlayır.

Leylamıyam, Məcnunmuyam, çölmüyəm,
Arımıyam, çiçəkmiyəm, balmıyam?!
Köləmiyəm, bir gözələ qulmuyam?!
Ha axtardım, tapammadım mən məni.

Ahıl yaşlarında sazına üz tutan Veysəl onunla dərdləşir: "Mən gedirəm, sən qal dünyada, amma qərib bülbül kimi ahu-zar etmə". Böyük ozan sazla olan yoldaşlığından danışır: "Dərdimə də, sevincimə də ortaq oldun, ağlatsam ağladın, güldürsəm, güldün". Və özünü arıya, sazı pətəyə, ərsəyə gələn musiqisini isə bala bənzədir:

Sən pətək misallı, Veysəl də arı,
İnləşib bərabər yapardıq balı.
Mən bir insan oğlu, sən tut budağı,
Mən atamı, sən ustanı unutma.

Aşıq Ələsgər şeirindən də bal süzülür:
Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın,
Zənbur çiçəyindən bal alı dağlar!

Arı güldən bal alar. Biz də sözdən bal aldıq. Sözünüzdən bal damsın. Balınız olmasa da, baldan şirin sözünüz olsun...

Bu gün kəpənəyəm, sabah qarışqa

"Qarışqa şıllaq atdı, dəvə palçığa batdı". Ta bu boyda da yalan olmaz. Bəs niyə babbalaca qarışqaya bu boyda qaravəlli qoşublar? Yəqin, bu sözün də bir olmuşu-keçmişi var.

Şifahi və yazılı ədəbiyyatda qarışqa təzadlı obrazdır. O, xeyirxah da ola bilər, bədxah da. Şərq ənənəsində qarışqa on ilahi canlıdan biridir. Bir rəvayətdə bu kiçik varlıq Süleyman peyğəmbərə müdrik və adil olmağı nəsihət edir. Çin mədəniyyətində qarışqa ədalətin, həqiqətin keşikçisidir. Ağ qarışqa buddizmdə gözəllik simvoludur. Bəzi ənənələrdə isə o, dağıdıcılıq rəmzidir.

Hindistanda qara qarışqalar müqəddəs həşərat sayılırlar. Hindular da qarışqaya hörmət bəsləyir. Çünki inanca görə, onlar insanların ləpirlərini yox edir və təqibçiləri yollarından azdırırlar. Ona görə hindu rəqslərində qarışqalarla bağlı xüsusi elementlər, motivlər var. İnanca görə, qarışqa yuvasını dağıtmaq bədbəxtlik gətirər. Yuvanı dağıdan şəxs yalnız bir duanın – qarışqa duasının gücüylə dərd-bəladan qurtula bilər.

Hinduların fikrincə, qarışqaların bəzi özəllikləri insanları xatırladır. Belə bir inanc var ki, qarışqalar nə vaxtsa insan olublar, ya da insanlar nə zamansa qarışqa.

Əsatirlərdə hindu qadınları ağdərili adamlarla ailə qurmaqdan çəkinirlər, çünki inanırlar ki, ağ adamlara ərə gedən qadınlar qırmızı qarışqalara çevrilirlər.

Yunan miflərinin birində Zevs qarışqa cildində peyda olur. Başqa bir mifdə isə adanın əhalisi vəbadan tələf olduqdan sonra yerli hökmdar Zevsdən kömək istəyir. Zevs adadakı qarışqaları insana çevirir.

Bir çox xalqların folklorunda qarışqa xeyirxah niyyətin daşıyıcısıdır. Alman nağıllarının birində qarışqa qalada həbs olunmuş qəhrəmana ipək saplar gətirir, ondan kəndir toxunur və qəhrəman həbsdən azad edilir.

"Büllur qala" rus nağılında şahzadə İvan qarışqaya çevrilir və dağın balaca bir yarığından keçib şahzadə qızı xilas edir. Başqa canlıya çevrilə bilmək bacarığını isə o, qarışqalardan onlara etdiyi yaxşılığa görə alır.

Qarışqaların insanlara çevrildiyi miflərdə qeyri-adi bir yola da rast gəlinir. Bu, qarışqa yoludur. Qarışqa yolu yerdən göyə qədər uzanır, yaxud yerin dərinliyində, ya da göy üzündədir.

Qarışqaların adı hətta "Bibliya"da da çəkilir. Müqəddəs kitabın pritçalarından birində deyilir: "Qarışqalar güclü deyil, amma öz tədarüklərini özləri görürlər".

Afrikada "dərzi" qarışqa yaşayır. Bu qarışqalar yarpaqlardan özünə yuva tikir. Yuva tikmək üçün isə yapışqanlı sürfələrdən istifadə edir. Beləcə, yarpaq kisə ərsəyə gəlir, onun içində isə yuva yerləşir.

Yer üzündə 10000 qarışqa növü var. Qarışqalar sarı, mavi, yaşıl, qırmızı, hətta moruğu rəngdə olurlar. Bir qarışqa öz ağırlığının 20 qatını qaldıra bilər. Qarışqa koloniyasının iş bölümü var. İşçi qarışqalar yuvanın içindəki zibili çölə daşımaqla məşğul olur. Əgər çöldə bir yemək mənbəyi tapsa, yuvadakı qarışqaları xüsusi qoxu buraxmaqla cəlb edir.

Qarışqaların ən vacib özəlliklərindən biri qidaları paylaşmaqdır. Hər qarışqada iki mədə olur, birində özü üçün, digərində isə o biri qarışqalar üçün yemək saxlayır. Eyni koloniyadan olan iki qarışqa qarşılaşdıqda əgər biri ac və susuzdursa, digərinin isə qursağında çeynənmiş yemək varsa, ehtiyacı olan ondan yemək tələb edir. O da ac qarışqanı geri qaytarmır, yeməyini onunla paylaşır. Qarışqalar sürfələrini də qursaqlarındakı yeməklə qidalandırırlar. Hətta çox vaxt özlərinə digər qarışqalara verdiklərindən daha az pay saxlayırlar

Qarışqa nə qədər balaca olsa da, onunla bağlı mətləblər heç atalar sözlərinə də sığmır. "Çox qarışqa bir şiri öldürər". "Qarışqa meydanı tutar, heç kəs də bilməz". "Qarışqa öküzün buynuzuna dırmandı, elə bildi ki, dağa çıxıb" və s.

Poeziyamızda da bu obrazla bağlı maraqlı təşbeh və ifadələr var.

Vaqif Bayatlı Odər şeirlərinin birində qarışqa sevgisinə sığınır:

Mən bir gün sevirəm, hər gün başqa cür,
Bu gün kəpənəyəm, sabah qarışqa.
Cəmi bircə günlük ömrüm var mənim,
Bu gün bir başqayam, sabah bir başqa.

Şair eləcə də "qarışqa qışqırığı", "qarışqa dili" deyimlərini şeirinə gətirir:

And olsun Göyüzündə qanad çalan o mələklərə!
Qanad çalıb, çalıb
Ancaq Göyüzünün olan mələklərə!
Baxdı ayağı altında
Otlara dırmaşan qarışqalara,
Onu qarışqa dilində qışqıra-qışqıra
Qarşılayan qarışqalara,
Şahlıq andı içdi yenə
– And olsun qarışqa elinə,
Qarışqa qışqırığına, qarışqa dilinə!

İsa İsmayılzadə bir məqamda şəhərləri, kəndləri qarışqa boyda görür:

Uçdum təyyarədə, getdim qatarda-
Gördüm, baxa-baxa yaman susuram.
Gah illüminatordan, gah pəncərədən
Hey boynunu büküb boylandı misram,
Boylana-boylana gözü qaraldı.
Baxdım ağ buluda, qara buluda-
Bir azdan hamısı dönüb «qar» oldu.
Qarışqa boydaca şəhərlə, kəndlə
Gördüm, dünya doludu…

Başqa bir şeirində şair ağlayır qarışqa yuvası üstə...

Adsız çiçəkləri, otları sevdim,
Tanışları sevdim, yadları sevdim,
Ürəyimə yatan adları sevdim,
Neyləyim,
tək səni sevə bilmədim.
Sızladım qarışqa yuvası üstə,
Göynədim «Sarıtel» havası üstə.
Dünyanın məhəbbət «davası» üstə
Tək səni,
tək səni sevə bilmədim.

"Bu dünyanın qarışqa yükü var, dəvə yükü var", – belə deyir Musa Yaqub:

Yenə bu dünyada ölçü-ülgü var,
Qarışqa yükü var, dəvə yükü var.
Özündən ağır yük çəkə bilsə də,
Bir yolu min dəfə gedib-gəlsə də,
Zəhməti çoxsa da,
Dili yoxsa da,
Bu yükü qarışqa adına yazma.

Başqa bir şeirində qarışqalarla adamları eyniləşdirir şair:

Bir yuva qarışqa – süfrəsi bir dən,
Bir dənlə bahara çıxar salamat.
Ulu təbiətim, yaman xəsissən,
Yaxşı adamları bir az çox yarat.

Aqşin Yenisey qarışqa sevgisini belə görür:

Demişdim axı... sevə bilməyəcəksən onu!
Təkadamlıq deyil onun sevgisi.
Qocaman bir palıdın yalnız bir quşun,
Dərin bir dəryanın yalnız bir balığın,
Dibsiz bir yuvanın yalnız bir qarışqanın olmadığı kimi.

Şair başqa bir şeirində kimisə "hamıdan güclü" adlandırır. Həmin varlıq- qarışqadır.

Səndən sonra günlərlə, həftələrlə, aylarla deyil,
İllərlə tək qalmağı öyrəndim.
Nə edəydim? Heç olmamış kimi yoxdun.
Bir gün külək köhnə qəzet cırığını

Yapışdırdı şüşəmə.
Açdım, baxdım. – Şairlərdən yazmışdın.
Amma mənim adım yoxdu.
Ömrümdə ilk dəfə özüm üçün darıxdım.
Çıxdım, getdim, içdim, susdum.
Küçədə bir qarışqa yuvasına baxdım:
İlahi bir faciə!
Hamıdan güclü olasan
Və ayaqlar altında yaşayasan.

Şeirlərində təbiətə qahmar çıxan Reyhan Kənan da deyir ki:

Onu bir heç sanmışıq,
Yuvasın tapdamışıq,
Bəlkə, ona görə də
Çox bəlalar tapmışıq.
Bəlkə də, bilə-bilə,
bəlkə də, heç bilmədən
Qırx mərtəbə yuvanın
Lap üstündə durmuşam,
Uçurub yuvasını, qarışqa
ürəyinə neçə yara vurmuşam.
Ağlayırmı, görəsən,
gülürmü bu həşərat?
O qədər incitmişəm,
Gizlənir məni görcək.
Bağışlamaz, bilirəm,
Bağışlamaz o məni.

Hə, əziz oxucular, qarışqa yerişi yeriməsək də, sizinlə "qarışqa dilində" danışmağa çalışdıq, amma yükümüz, bilmədik, qarışqa yükü oldu, ya dəvə yükü...

## Təranə Arifqızı

# Müharibə

Müharibə təbiətin qoynunda ipək xalı üstündə yerimək deyil,
güllərin yox, güllələrin arasında  qorumasız qalmaq,
çiçək ətrini yox, barıt iyini  içinə çəkməkdir..
müharibə ayağı yalın körpənin qar üstündə qanlı iz salmasıdır.
Ağlayaraq, titrəyərək, donaraq... bu dünyadan küsərək...
yaddaşlarda qara xal kimi qalmasıdır.
Azca şansı varsa, uçqunlar altından dili tutulmuş, qulağı batmış
gözləri işığını itirmiş halda tapılan yarımcandır.
Müharibə üzünü Tanrıya tutub qaldırdığın şərab deyil,
müharibə ölüm adlı əbədiyyət, həyat adlı cəhənnəm,
insanlığın şərəfinə içdiyin qandır.

Müharibə xoşbəxt təbəssümlə dünyaya sevgi paylamaq deyil...
Müharibə bir sevgi uğruna bütün sevgiləri udan, yarım qoyan,
onu torpağın yeddi qatına gömən,
gülüşü üzlərdə donduran dünyanın şeytanıdı, iblisidi.
Bəşərin viranəliyi, insanların divanəliyi, varlığın heçliyidi...

Müharibə üzü günəşə açılan pəncərədən həyatı seyr etmək deyil,
o çərçivədən dağılmış evlərin, yanmış arzuların,
küçələrdəki bombalanmış izlərin, yaşanmamış,
yox olmuş həyatların  varlığının gözlərində rəsmini çəkməkdir.
Tanışdı mənə qəhərdən boğazın tıxanması,
nifrətdən gözlərin, ürəyin çalxanması...
Müharibənin doğması deyil, yadıyam...
Çünki mən, müharibəni görmüş,
onun ağırlığını ruhunda, vücudunda
gözlərində, sözlərində, keçmişində, bu günündə yaşamış
başı bəlalı Ananın övladıyam..

Müharibə soyuq qış günündə isti yataqda xumarlanmaq,
yaşadığın gözəllikləri anmaq deyil...
Müharibə daş döşəmədə, əlləri qoynunda yumaq kimi yığılıb,
ömrün acı, uzun, bitməyən günlərini dua kimi Tanrının üzünə saymaqdır...

Müharibə göyərən yerdə həyat solur, quruyur, məhv olur...
Baxıram insanların dəhşət yazılmış gözlərinə, ümidsiz baxışlarına,
qəsbkara dişlərim sıxılır, gözlərim dolur.
Yaş şüşələnmiş gözlərin, qanı qaçmış dodaqların
qanlı, qansız yaraların sualına cavab tapa bilmirəm.
Yalnız haqq savaşının qələbəsi suallara cavabdır...
Ədalətsiz müharibə isə bütün cavabları sual altında qoymaqdır.

## Şahnaz Şahin

# Buğda Adam

Mən buğda adamam, mən dən adamam
Səpərsən bitərəm baharlı yerdə
Çox da ki nənəmi cənnətdın qovub
Mən bir özgə dənəm qabarlı əldə.

Nə deyim, bir az da çətin adamam
Həm dinsiz adamam, həm din adamam
Mən sonsuz adamam,yetim adamam
Qoy yerə bir bəxtsiz apardı bəlkə.
Yay ötdü,payızdı barım hardadı
Yarım torpaqdadı, yarım hardadı
Bir afət var idi gəldi qoymadı
Allah sala məni bir özgə şəklə.

Bir dənəm, qayada, daşda bitərəm
Ağlama tökdüyün yaşda bitərəm
Mən sonda gələrəm, başda bitərəm
Bitərəm o susuz,o şoran çöldə

Mən buğda adamam, qadanı alım
Çöllər sünbül tutar bircə dənimdən
Göylər yağış yağar qüssə qəmimdən
Mən tarla adamam, zəmi adamam
Ağzında bir çörək təmi adamam

Mən tanış adamam, mən dost adamam
Mən doğma adamam mən yad adamam
Əllərim Tanrının ətəklərində
Evim dan yerində abad adamam
Mən buğda adamam qadanı alım.

Üzünə küləklər açar qapımı
Gəl,gəl sən də tanı uca qapımı
Amma cənnətindən ehtiyatlı ol
Köhnə qələtindən ehtiyatlı ol
Mən buğda adamam, qadanı alım

## Nazlı Çelebi

# “Doğma Günahlar” Romanından Bir Parça

Vəfa üçün bu, son damcı oldu. Düşdüyü vəziyyəti qəbul edib qərar vermişdi. Bu addım onun və uşağının gələcəyini dəyişəcəkdi. O bilirdi ki, onun seçim haqqı var, lakin ürəyin ağılla etdiyi ağrılı mübahisəyə yalnız və yalnız susaraq cavab verməli olurdu. Bilirdi ki, verdiyi qərar hər cür fəsadla nəticələnə bilər, lakin daha gözləyə bilməzdi. Artıq xeyli böyümüş qarnını ehmalca qucaqlayıb: “Sabah... sabah bizim xilas günümüzdür”, – deyə pıçıldadı... Günəşin doğmasına az qalmışdı. Səhəri dirigözlə açan Vəfa gecədən yığdığı çox da böyük olmayan yol çantasını götürüb gizlicə evdən çıxdı. Ala-qaranlıqda payi-piyada avtovağzal tərəfə addımladı. Tez-tez qanrılıb arxaya, evlərindən nə qədər uzaqlaşdığına baxırdı. Bir azdan kənd yuxudan oyanacaq, mal-qara sağıldıqdan sonra örüşə göndəriləcəkdi. Ona görə də bacardığı qədər yüyrək addımlarla getməli, onu kimsə görməməli idi. Qarşıda isə sonu bilinməyən bir yol var... Günorta saatlarına artıq Bakıya çatmışdı. Anası tərəfdən olan uzaq qohumlarına pənah gətirmişdi. Ev sahibləri də Vəfanın qəfil gəlişindən şad olmamışdılar. Evdən qaçmış yeniyetmə qızı həm də hamilə vəziyyətdə nə ad ilə qəbul edəydilər? Vəfanın yalvarış dolu göz yaşları ev sakinlərinin qəlbini bir qədər yumşalda bilmişdi. Onlarda cəmi bircə gün qaldı. Bu işin yaxşı qurtarmayacağını düşünən qohumlar məsuliyyəti üstlərindən atmaq üçün ona yaxınlıqda bir 15 ev kirayələdilər. Özünə də bərk-bərk tapşırdılar ki, bu haqda heç kimə heç nə deməsin. Doğuşa qədər həm kirayəsini, həm də həftəlik bazarlığını etməyə boyun oldular. Beləliklə, Vəfa kirayə evə yerləşdi. Bir otaqdan ibarət köhnə ev ona saray kimi görünürdü. Əsas odur ki, onu döyən atası, hər gün qarğıyan anası yanında deyildilər. Bir gün ancaq yatdı. Səhəri gün isə onun üçün gətirilən bazarlıqdan yemək hazırladı. Yeri bilinər deyə qorxudan bayıra çıxmır, qonşularla ünsiyyət qurmurdu. Kənddə isə onu yalnız anası, o da bircə gün axtardı. Belə qız nə ona, nə də ailəsinə lazım idi. Kirayə evdə qaldığı 1 ay müddətində qonşu Əsmər ona gizlincə göz qoyurdu. Əsmər özü də gənc qız idi və tibb texnikumunda təhsil alırdı. Ümumi həyəti olan bu kiçik evlər lap çoxdan tikilmişdi. Vəfanın qaldığı ev, yanında ev sahibəsinin evi, bir də Əsmərin yaşadığı ev. Hər evin qapısı isə bir-birinə baxırdı. Hava xoş olanda qonşular stol, stul qoyub həyətdə oturar, bir qohum kimi dərdlərini bölüşər, birlikdə çay içərdilər. Lakin Vəfa başını evdən çıxarmaq, onlarla ünsiyyətə girmək istəmirdi. Həftədə bir dəfə bir nəfər kişi onun üçün etdiyi bazarlığı qapıdan verib gedirdi. Ev sahibəsi Badam xala əri öldükdən sonra tək yaşayırdı. Bircə qızı olan Aysu ərə getdikdən sonra həyat yoldaşı ilə bir müddət Vəfanın qaldığı evdə yaşadı. Lakin ana olduqdan sonra ev darısqallıq etdiyinə görə köçüb başqa evə getdilər. Bir tək təqaüdlə dolana bilməyən Badam evi kirayə ver- 16 məyə başladı. Hər dəfə də tələbə qızlar tapırdı. İndi yay tətili olduğu üçün tələbə qızlar evdən çıxıb getmişdilər. Üç ay boş qalmasın deyə, öz keçmiş qonşusu olan Mədətin məsləhəti ilə evi Vəfaya vermişdi. Hamilə olduğundan narahat olsa da, Mədətə etibar edirdi. Elə Mədət də Badamın ağzıbütöv olduğunu yaxşı bilirdi. Ucundan-qulağından vəziyyəti başa salmışdı ona. Badam da etiraz etməmişdi. Düşünürdü ki, qız doğduqdan sonra çıxıb gedəcək. Elə Əsmərgilə də onun haqda çox qısa məlumat vermişdi. Lakin yeniyetmə qızın hamiləliyi tək çəkməsi bir insan kimi Əsmərə ağır gəlirdi. Nəhayət, bir gün ona baş çəkmək qərarına gəlir. Səhər açılan kimi bazardan yenicə almış yarım kilo çiyələk, yarım kilo da gilası yuyub bir qaba boşaltdı. Gəlib qonşu qızın qapısının qarşısında dayandı. – Vəfa, – deyə qızı səslədi. İçəridən səs gəlmədi. Qulağını qapıya yaxınlaşdırdı ki, görsün evdə hənirti var, yoxsa yox. Sakitlik idi. Bu dəfə qapını tıqqıldatdı. Çox keçmədi ki, Vəfa qapını açdı. Ürkək baxışlarla Əsməri süzdü. – Qonaq qəbul edirsən? – gülümsəyərək əlindəki boşqabı ona uzatdı. Çiyələyin xoş ətri Vəfaya “yox” deməyə imkan vermədi. Geri çəkilib qonşu qıza yol verdi. – Hə, gəl. Əsmər tez içəri keçdi. Ayaqqabılarını çıxarıb hər küncünü çoxdan tanıdığı evin mətbəxinə keçdi.

Vəfanın vəziyyəti isə günbəgün pisləşməyə doğru gedirdi. Uzun müddət ac qaldığı üçün yaranmış qastrit daha da kəskinləşmiş, dözülməz ağrılar verməyə başlamışdı. Təəssüflər olsun ki, doğuş həkimin təyin 20 etdiyi gündən daha tez başladı. Qızı qonşuların müşayiəti ilə doğum evinə apardılar. Təcili keçirilən əməliyyat onun da, dünyaya gətirdiyi qızı Səmanın da həyatını xilas etmiş oldu. Səhəri gün qızını doğum evində qoyub qaçmaq istəyən Vəfanı tutub yenidən xəstəxanaya gətirdilər. Dərmanları qəbul etməkdən imtina edən qızın tikiş yeri sürətlə irinləməyə başladı. Qızı Səmanı isə vaxtından əvvəl doğulduğu üçün intensiv terapiya şöbəsində küvezə yerləşdirmişdilər. Uşaq hələ bir ay küvezdə həkim nəzarəti altında qalmalı idi. Vəfanın yeniyetmə olduğu, atasız uşaq dünyaya gətirdiyi haqda doğum şöbəsi artıq polisə məlumat vermişdi deyə, qız nəzarətə götürülmüşdü. Bir ay ərzində Badam xala və Əsmər ona öz doğmaları kimi qayğı göstərdilər. Nəhayət, xəstəxanadan çıxdığı gün Vəfa uşağı Badam xalaya tapşırıb, özü Əsmərin evində gecələdi. Səhəri gün anasının göndərdiyi bir miqdar pul ilə uşağa çarpayı almaq adı ilə evdən çıxdı. Sonradan məlum olur ki, o mağazaya yox, qəbiristanlığa gedibmiş. Ertəsi gün uşağı da qu-

cağına götürüb ayaqyalın yol getdiyini görən sahə müvəkkili onu tutub idarəyə aparır. Badam xala və Mədət kişi gedib onu yenidən evə gətirirlər. Mədət mağazadan uşaq yeməyi alıb Badam xalaya verir ki, lazım olanda uşağı o özü yedirsin. Vəfa doğum evindən çıxana qədər Badam xala Səma üçün öz nəvəsinin uşaq arabasını gətirtmişdi. Polis idarəsindən gələndən sonra isə qorxuya düşmüş zavallı qadın uşağı özü yedirmiş, ara- 21 baya qoyub yanında yatırmışdı. Vəfa gecəyarı bir neçə dəfə arabaya yaxınlaşıb uşağına baxmışdı. Ona köməklik üçün Əsmər də əlindən gələni etməyə davam edirdi. Günorta yeməyini yedikdən sonra bişirdiyindən balaca bir qazana doldurub Vəfagilə gəldi. – Bəh-bəh-bəh, gör nə yemək bişirmişəm ey, ölü yesə, dirilər, – deyə ucadan əlində tutduğu qazanı ona uzatdı. – Nə yeməkdir ki? – Mmm... – Əsmər başını yırğalayıb iştahla ağzını marçıldatdı, – Yarpaq dolması! İyi adamı bihuş edir. Gətirdim ki, gənc ana yeyib özünə gəlsin. Vəfa qazanın içinə boylandı. – Qoy mətbəxdə stolun üstünə, bir azdan yeyərəm. Əsmər qazanı mətbəxə aparıb tez də qayıtdı. Vəfanın könlünü açmaq üçün evin içində sürdüyü uşaq arabasına yaxınlaşdı. Uşağa baxıb əzizləməyə başladı. – Ayy, bu gözəl qız kimin balasıdır? Nə gözəl qızdır bu? Nə şirin qızdır bu? Adı da Səma. Bəh-bəh. Anası, – deyə başını qaldırıb Vəfanın üzünə baxdı, – bəs bu qız üçün qonaqlıq nə vaxtdır? Vəfa arabanı irəli-geri çəkərək əhvalını pozmadan cavab verdi: – Həə, qonaqlıq... Qonaqlıq mütləq olacaq. Hamı uşağın yasına gələcək, bax onda qonaqlıq olacaq. 22 Bu sözlərdən Əsmər yerində donub qaldı. Vəfanın doğru danışıb, yaxud zarafat etdiyini özü üçün aydınlaşdırmaq istəyirdi. – Necə yəni... yasına? – asta səslə soruşdu. – Aaa, bəs sən bilmirdin? Yas olacaq. Bax, arabada sürdüyüm uşaq ölüdür. – Ay qız, sən nə danışırsan? – Əsmər bu sözlərdən dəhşətə gəlmişdi. – Bəs görmürsən, əməliyyatımın yerindən irin axır? Bu o deməkdir ki, mən içimdən çürüyürəm. Məndən uşağıma infeksiya keçib, o da çürüyüb ölüb. Vəfa sözləri tam ciddiyyəti və çox sakit tərzdə söyləyirdi. Əsmər məyus halda daha bir söz deməyib evlərinə gedir. Səhər saat 11:00 radələrində Vəfa təcili yardıma zəng edir. Tibb işçiləri evə daxil olan kimi Vəfa onların qabağına qaçıb: “Baxın, deyəsən, mən onu öldürmüşəm”, söyləyir. Həkim tez uşağa yaxınlaşıb üstünə qoyulmuş yastığı götürür. Qızcığaz nəfəs almırdı, bədənində isə artıq tünd-çəhrayı ləkələr yaranmağa başlamışdı. Elə bu zaman Əsmər də özünü yetirir. – Uşaq kliniki ölüm keçirib, artıq gecdir, – deyə həkim təəssüflə başını yellədi. Bunu eşidən Əsmər özünü uşağı üstünə atır. – Həkim! Həkim, yalvarıram, kömək edin! – deyə təlaş içində uşağı silkələməyə başladı, – Səma!... Səma, oyan körpəm! Oyan! Həkim, kömək edin!

## Bənövşə Mahmudqızı

# Haradaydın

“Mən həmişə dardaydım...”
İcazə ver, çıxım gedim...
Çox yaralar aldım,
Çox qəmlər yedim.
Qaralar bağladım,
İçimə - içimə ağladım.
Güldüm...
Yalandan - dolandan.
Çiynimə yük qoyulandan,
İçimə - içimə ağladım...
Gözümdə yaş
Bağrıma daş basdım.
Dilimdə səssiz bir kaş,
Arzularımın boynundan,
Bədbəxtlik ipi asdım.
Gözümdə yaş,
Dilimdə səssiz bir kaş
Yaralarımı sarıdım,
Heç olmamış saydım.
Mən həmişə dardaydım,
Bəs sən,
Sən haradaydın?

## Fatma Özger Bilgiç

# Zalim

Sen gittin gideli yüreğim düşman
Yüreğim gülmedi sevin ey zalim
Beni ezer, üzer seni hep sever
Kalbe aşk dolmadı sevin ey zalim...

Kör gözüm görmedi, cananım derdi
Beni hep suçladı gönlünü verdi
Seni bir görmese kendini yerdi
Huzurum olmadı sevin ey zalim...

Kaderin tuzağı yakar içimi
Ellerim yoluyor siyah saçımı
Yıllardır bilmedim hâlâ suçumu
Gözlerim dalmadı sevin ey zalim...

Yol oldum gönlüne beni takmadı
Seven yüreğimi aşkla yakmadı
Aradaki duvar yüksek yıkmadı
Kıymeti bilmedi sevin ey zalim...

Bu ömürde Özger yürek hatalı
Sarhoş gibi oldu aşkı tadalı
Sevdamın kırıldı gövdesi dalı
Acı verse de bu sevda yatalı
Sağlığım kalmadı sevin ey zalim